# MÜXTƏLİF AQROEKOLOJİ ŞƏRAİTDƏ BECƏRİLƏN BUĞDA GENOTİPLƏRİNDƏ YIĞIMDAN SONRAKI SAXLAMA MÜDDƏTİNİN DƏN VƏ TOXUM KEYFİYYƏTİNƏ TƏSİRİNİN TƏDQİQİ

**Leyla Həsənova**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu, leylahesenova214@gmail.com*

Müxtəlif aqroekoloji şəraitdə becərilən yumşaq buğda sortlarında dənin fiziki və biokimyəvi göstəricilərinin yığımdan sonrakı saxlama müddətindən və genotipdən asılılığı öyrənilmişdir.

Tədqiqat materialı AR KTN Əkinçilik ET İnstitutunun respublikanın müxtəlif bölgələrində yerləşən təcrübə stansiyalarında, müxtəlif becərmə şəraitində (suvarma, nəmliklə təmin olunmuş dəmyə və quraq dəmyə) seleksiya yolu ilə yaradılmış yumşaq buğda sortlarından ibarət olmuşdur.

Tədqiqat zamanı buğda sortlarında 10 gün intervalla keyfiyyət göstəricilərinin dəyişməsi izlənilmişdir. Nəticədə yerli sortlarda saxlama müddətindən asılı olaraq kleykovinanın miqdarının və İDK-nın dəyişməsi arasında qanunauyğunluq aşkar edilmişdir. Müxtəlif sortlarda saxlama müddətindən asılı olaraq, bu qanunauyğunluğun müddəti fərqli olmuşdur.